# Heydər Əliyev xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirdi

## Müxalifət Milli Qurtuluşu tarixin dönüş nöqtəsi kimi qiymətləndirir

**Milli Qurtuluş Günü Azərbaycanın müstəqillik tarixinin ən əlamətdar hadisələrindən biridir. 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilən Ulu Öndər Heydər Əliyev həmin vaxtdan qurtuluş missiyasını qətiyyətlə yerinə yetirməyə başlayıb.**





Ümummilli Lider xalqımızı təhlükələrdən xilas edib, dövlət müstəqilliyimizi qoruyub. Heydər Əliyevin zəngin siyasi təcrübəsi dövlətimizi və xalqımızı dövrün ən çətin sınaqlarından üzüağ çıxarıb.

Mövzu ilə bağlı müxalif siyasi partiyaların sədrlərinin fikirlərini öyrəndik. Onların sözlərinə görə, Azərbaycan ötən 30 ildə Heydər Əliyev ideyalarının işığında şərəfli inkişaf yolu keçib.

### Ulu Öndərin müdrikliyinin parlaq təcəssümü

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə bildirib ki, həmin tarixi gündən ötən 30 il  Azərbaycanın qurtuluş dövrüdür: "1993-cü ilin 15 iyun tarixi Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəldiyi gündür. Həmin gün Heydər Əliyev Ali Sovetin Sədri seçilərək xilaskarlıq missiyasını yerinə yetirməyə başladı, xalqımızın və dövlətimizin müsbət taleyini müəyyən etdi. Ulu Öndərin tarixi qayıdışı ilə ölkədəki dərin ictimai-siyasi və iqtisadi böhrana son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı".

Partiya sədri qeyd edib ki, Heydər Əliyevin adının tariximizə xalqımızın və dövlətimizin xilaskarı kimi yazılması təsadüfi deyil: "Xatırlatmaq lazımdır ki, 1993-cü ilin iyununda ovaxtkı prezident Əbülfəz Elçibəyin Bakını tərk etməsi nəticəsində ölkədə hakimiyyət boşluğu yaranmışdı. Azərbaycan ağır günlər yaşayırdı, vətəndaş qarşıdurması pik həddə idi. Hər tərəfdən düşmənlərlə əhatə olunduğumuz olduqca ağır bir dövrdə ölkənin başsız qalması ciddi fəlakətlərə səbəb ola bilərdi. Lakin Ulu Öndər Heydər Əliyevin Ali Sovetin Sədri və prezident səlahiyyətlərinin icraçısı kimi uğurlu fəaliyyəti xaos və anarxiyaya son qoydu".

Arzuxan Əlizadə bildirib ki, Heydər Əliyev Azərbaycanı ağır durumdan çıxarmağı uğurla bacardı: "Həmin vaxtlar torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı davam edirdi, iqtisadi-siyasi və sosial vəziyyət getdikcə gərginləşirdi. Elə bir dönəm idi ki, ölkə rəhbərliyinə gələn şəxsin üzərinə çox ciddi məsuliyyət düşürdü. Ölkəni siyasi-iqtisadi böhrandan çıxarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, düşmənə sinə gərmək və bütövlükdə Azərbaycan cəmiyyətini toparlamaq, xalqın inamını özünə qaytarmaq lazım idi. Bu isə, əlbəttə ki, hər siyasətçinin və dövlət adamının öhdəsindən gələ biləcəyi görəv deyildi. Ulu Öndər çətin olduğu qədər də məsuliyyətli və şərəfli olan bu görəvin öhdəsindən gəlməyi bacardı, Azərbaycanımızı ağır vəziyyətdən çıxara bildi".

Partiya sədrinin sözlərinə görə,  Heydər Əliyevin hakimiyyətə qayıdışı müasir Azərbaycan tarixində dönüş nöqtəsi oldu: "Ulu Öndərin tarixi qayıdışı ilə müasir Azərbaycanın gələcək inkişaf konturları müəyyən edildi. Növbəti illərdə ölkədə neft kontraktları imzalandı, beynəlxalq dəstək alındı. Bütün bunlar ölkəmizin ağır durumdan xilası üçün ciddi əhəmiyyət kəsb edirdi. Torpaqlarımızın işğal altında olduğu belə acınacaqlı dövrdə ölkəmizin iqtisadi-siyasi böhrandan çıxarılmasında, dövlət müstəqilliyimizin qorunmasında Heydər Əliyevin əvəzsiz rolunu danmaq olmaz. Bu mənada 15 İyunu müasir Azərbaycan tarixinin sanki yenidən yazıldığı gün kimi də dəyərləndirə bilərik. Azərbaycanın qurtuluşdan sonrakı inkişafı da Heydər Əliyevin müdrik siyasətinin parlaq təcəssümüdür".

### Müstəqilliyimizin memarı

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirib ki, 15 İyun Azərbaycan tarixinin ən əlamətdar və əhəmiyyətli günlərindən biridir: "Həmin gün Azərbaycanın böyük siyasətçisi Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi ilə ölkəmiz qurtuluş yoluna qədəm qoyub. O vaxtlar Azərbaycan parçalanma təhlükəsi ilə üz-üzə idi, düşmən torpaqlarımızı işğal edir, şəhər və kəndlərimizi viran qoyurdu. Həmin dövrdə necə gərgin vəziyyətin olduğu hər kəsə bəlli idi. Ölkədə, faktiki olaraq, hakimiyyətsizlik hökm sürür, özbaşınalıq baş alıb gedirdi. Belə gərgin şəraitdə Heydər Əliyevin hakimiyyətə gəlişi vəziyyətdən yeganə çıxış yolu idi".

Partiya sədrinin sözlərinə görə, Azərbaycanın ağrılı günlərində Heydər Əliyevin hakimiyyətə gəlməsi əlamətdar hadisə idi. Ulu Öndər xalqın dəstəyi ilə Azərbaycanı irəliyə doğru aparmağı bacardı. Müxtəlif gərginliklər yaşanmasına, dövlət çevrilişlərinə cəhdlər edilməsinə baxmayaraq, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində siyasi və iqtisadi sabitlik yarandı. Dövlət çevrilişlərinə cəhdlərin qarşısı alındı, Ermənistan atəşkəs müqaviləsi imzalamağa məcbur edildi.

Elşad Musayev əlavə edib ki, Heydər Əliyevin adı tariximizə xilaskar və müasir dövlətimizin memarı kimi həkk olunub: "Xalqın dərin inamını və etimadını qazanmış Ulu Öndər belə çətin missiyanın öhdəsindən gəlməyi bacardı, ölkəmizi dərin siyasi-iqtisadi böhrandan xilas etdi, dövlət müstəqilliyimizi qorudu. Elə ona görə də ömrünü Azərbaycan xalqına həsr etmiş müdrik siyasətçi Heydər Əliyevin adı tariximizə həm də xalqımızın xilaskarı, müstəqilliyimizin memarı kimi yazıldı. Təsadüfi deyil ki, xalqımız böyük xilaskarının tarixi qayıdışını - Milli Qurtuluş Gününü hər il yüksək bayram əhvali-ruhiyyəsi ilə qeyd edir. Bu gün isə Prezident İlham Əliyev Ulu Öndərin ideyalarını yaşadır və onun siyasi kursunu uğurla davam etdirir. Bunun nəticəsidir ki, təməli Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycanımız beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətə çevrilib".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 15 iyun.- S.22.